**Azərbaycan Respublikası**

**Beynəlxalq Əmək Təşkilatı**

# Azərbaycan Respublikasının 2016 – 2020-ci illər üçün

# Layiqli Əmək üzrə Ölkə Proqramı

**Giriş**

Azərbaycan Respublikasında layiqli əmək milli iqtisadi və sosial siyasətlərin əsas hədəflərindən biri kimi qəbul olunur. Beynəlxalq Əmək Təşkilatının (BƏT) layiqli əmək konsepsiyası qadınlar və kişilər üçün azadlıq, bərabərlik, təhlükəsizlik və insan ləyaqəti şəraitində layiqli və məhsuldar əməyin təşviq edilməsi deməkdir.

2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı (LƏÖP) Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda və digər bu kimi bir sıra milli proqramlarda əks olunmuş milli prioritetlərə əsaslanır.

Layiqli Əmək gündəliyi 2016-2020-ci illəri əhatə edən Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə Azərbaycan arasında yeni Tərəfdaşlıq Çərçivəsinin (UNAPF) əsas istiqamətlərinə daxil edilərək "Diversifikasiyanın genişləndirilməsinə və layiqli əməyə əsaslanan dayanıqlı və inklüziv İqtisadi İnkişafın həvəsləndirilməsi" birinci Strateji Prioritet Sahəsini tam dəstəkləyir. Yeni LƏÖP eyni zamanda UNAPF-ın "İnstitusional potensialın və effektiv dövlət və sosial xidmətlərin gücləndirilməsi" ikinci Strateji Prioritet Sahəsinin icrasına da öz töhfəsini verəcəkdir[1].

Hamı üçün layiqli əməyin təmin olunması Hökumətin Davamlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq üçün etdiyi səylərinin əsas hədəfinə çevrilməkdədir və BƏT bu istiqamətdə Azərbaycana 2030 Gündəliyinin həyata keçirilməsində dəstək göstərəcəkdir. Bu dəstək Hökumətin məşğulluq siyasətinə uyğun həyata keçiriləcəkdir.

Milli səviyyədə davamlı inkişafın təmin olunmasında və DİM-in həyata keçirilməsində layiqli əməyin əhəmiyyətini anlayaraq, Azərbaycandakı üçtərəfli tərəfdaşlar BƏT ilə Proqramın hazırlanması ilə bağlı texniki məsləhətləşmələr şəraitində 2016-2020-ci illər üzrə LƏÖP üçün prioritetləri müəyyən etmişlər. Proqramda hədəflər, hədəflərin əldə olunması strategiyalarının qısa təsviri, əsas nəticələr və layiqli əməyin təmin olunmasında irəliləyişlərin və tədbirlərin qiymətləndirilməsi meyarları əks olunur.

## I. Ölkə konteksti: diaqnostika və vəziyyətin təhlili

Azərbaycan son on il ərzində ***genişmiqyaslı iqtisadi artıma*** nail olmuşdur. Makroiqtisadi siyasətlər iqtisadi sabitliyi təmin etmiş, neftlə əlaqəli birbaşa xarici investisiyalar sürətli iqtisadi inkişafa səbəb olmuş və Azərbaycan yuxarı orta gəlirli ölkəyə çevrilmişdir.

[1] Daha dəqiq, Nəticə 1.1: 2020-ci ilə Azərbaycan iqtisadiyyata daha çox diversifikasiya olunub və davamlı artımı və xüsusilə, gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün, layiqli iş şəraiti yaradır; Nəticə 2.1: 2020-ci ilə Azərbaycan şəffaf, dəlillərə əsaslanan, gender baxımından həssas siyasətlərin formalaşdırılmasında və icrasında institusional potensialı artırmışdır; Nəticə 2.2: 2020-ci ilə Azərbaycan, Universal Dövrü İcmal daxil olmaqla, beynəlxalq insan hüquqları mexanizmlərinə və digər saziş öhdəliklərinə uyğun irəliləyiş əldə etmiş və icra, monitorinq və hesabat vermə potensiallarını beynəlxalq standartlara uyğun gücləndirmişdir; Nəticə 2.3: 2020-ci ilə, keyfiyyətli dövlət və sosial xidmətlər hamı üçün əlçatandır və sosial baxımdan daha əhatəli və bərabər inkişaf nəticələrini əldə etməyə yardım edir.

Azərbaycan iqtisadiyyatı 2000-ci illərdə neft sıçrayışına və əhəmiyyətli fiskal imkanlar hesabına nəzərəçarpan artıma nail olmuşdur. 2001-2009-cu illərdə Ümumi Daxili Məhsul (ÜDM) illik orta hesabla 16,1% səviyyəsində artmışdır. 2001-2009-cu illər ərzində neft sektorunun ÜDM-də payının artımı 22,9% olduğu halda, həmin dövr ərzində qeyri-neft sektorunun ÜDM-də payının artımı 11,2% təşkil etmişdir. 2008-ci ildən etibarən dünyada yayılmağa başlayan qlobal iqtisadi böhran, xüsusilə də, beynəlxalq bazarda neftin qiymətinin kəskin aşağı düşməsi ÜDM-nin artım səviyyəsinin 2008-ci (10,8%) və 2009-cu (9,3%) illərdə azalması ilə nəticələnmişdir. 2011-ci ildə neft hasilatının 10,6% azalması şəraitində ÜDM-nin artımı yalnız 0,1% təşkil etmişdir. 2012-ci ildə neft istehsalındakı azalma tikinti və xidmətlər sektorları hesabına qeyri-neft sektorunun 9,7% illik artımı ilə qarşılandığı üçün ÜDM-nin artımı 2,2% təşkil etmişdir. 2013-cü ildə ÜDM yenə 5,8%-dək artmış, daha sonra artım 2014-cü ildə 2,8% və 2015-ci ildə isə 1,1% səviyyəsinə enmişdir[2]. Azərbaycan neft sıçrayışı dövründə toplanılmış xarici valyuta ehtiyatları və hökumətin təbii sərvətlərə əsaslanan artım mühitindən irəli gələrək iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsi və özəl sektorun gücləndirilməsi istiqamətində edilən səyləri hesabına qlobal tənəzzülün öhdəsindən nisbətən yaxşı gəlmişdir.

2000-ci illərdə neft hasilatının yaratdığı imkanlardan yararlanaraq Azərbaycan əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədi ilə irimiqyaslı dövlət investisiya proqramlarının və dəstəkləyici tədbirlərin, eləcə də, iqtisadiyyatın müasirləşdirilməsinə yönəldilmiş institusional islahatların həyata keçirilməsinə başlamışdır. Bu tədbirlər ***yoxsulluğun*** əhəmiyyətli dərəcədə ***azaldılması*** ilə nəticələnmişdir. Azərbaycanın adambaşına düşən ümumi milli gəliri (2005-ci ilin faktiki müqayisəli qiymətləri ilə ölşülmüşdür) 2001-2008-ci illər ərzində 6,4 dəfə, daha sonra 2009-2013-cü illərdə 1,6 dəfə artaraq 2013-cü ildə 5947 manat səviyyəsinə çatmışdır[3]. Milli yoxsulluq həddindən aşağı yaşayan əhalinin payı 2001-ci ildəki 49%-dən 2007-ci ildə 15,8%, 2015-ci ildə isə 4,9% səviyyəsinə enmişdir.[4] 1980-ci və 2015-ci illər arasında doğulanda gözlənilən ömür uzunluğu 7 il artmışdır.

Yoxsulluq səviyyəsinin bu cür əhəmiyyətli azalmasına baxmayaraq, hələ də yoxsulluq həddindən aşağı və ya bir az yuxarı səviyyədə yaşayan insanlar vardır.

Son illər ərzində Azərbaycan iqtisadiyyatın diversifikasiyası istiqamətində əhəmiyyətli işlər aparmış və hazırda əsas iqtisadi sektor kimi neft sektorundan asılılığın azaldılmasına çalışır. İqtisadiyyatın, məsələn İKT və turizm kimi sektorların diversifikasiyası, birbaşa xarici investisiyaların (BXİ) iqtisadiyyata cəlb edilməsi və transmilli təşkilatların əməkdaşlığa dəvət olunması böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasına BXİ axını son illər ərzində sabit şəkildə artmış və 2014-cü ildə 8 milyard ABŞ dolları səviyyəsinə çatmışdır və bu sərmayənin 83%-dən çoxu neft və qaz sektoruna istiqamətləndirilmişdir. BXİ ÜDM-nin təxminən 10,7%-ni təşkil edir[5]. Azərbaycana sərmayə qoyan ölkələrin sayı çoxdur (sərmayə həcminə görə sıra ilə): Birləşmiş Krallıq, ABŞ, Yaponiya, Norveç, Türkiyə, Çex Respublikası, Fransa, Rusiya. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO)[6] Azərbaycan

[2] www.cisstat.com
[3] World Bank Database // http://data.worldbank.org/country/azerbaijan
[4] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
[5] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
[6] http://azpromo.az/

Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən 2003-cü ildə BXİ-nin qeyri-neft sektorlarına cəlb edilməsi vasitəsilə ölkənin iqtisadi inkişafına töhvə verilməsi üçün təsis edilmişdir.

Buna baxmayaraq, Azərbaycanın hazırda qarşılaşdığı iqtisadi vəziyyət göstərir ki, ölkənin sürətli iqtisadi inkişafı yoxsulluğun hələ də tam aradan qaldırılmasına gətirib çıxarmamış və inkişafı tələb olunan sahələr hələ də qalmaqdadır. Bunlar əhəmiyyətli dərəcədə regional bərabərsizliklər, iqtisadi artımın layiqli və məhsuldar məşğulluğun yaradılmasını tam dəstəkləməməsi, qeyri-formal məşğulluğun mövcudluğu, institusional transformasiyanın yekunlaşmaması, iqtisadi artımın uzunmüddətli davamlılığı baxımından narahatlıq doğuran neft və qaz sektorundan asılı olan iqtisadiyyatın sürətli diversifikasiyasının yeni başlanğıcıdır.

## Əmək bazarı və məşğulluq

***Əmək bazarının*** inkişafı iqtisadi artıma, rəqabətliliyə və yoxsulluğun azalmasına təsir edən əsas amildir. Azərbaycan Respublikasının əhalisinin sayı ötən il 1,2% artaraq 2016-cı ilin 1 yanvar tarixinə 9,7 mln. nəfərə çatmışdır. Əhalinin 53,1%-i şəhər, 46,9%-i isə kənd sakinləridir. Əhalinin 49,8%-ni kişilər, 50,2%-ni qadınlar təşkil edir. Hazırda Azərbaycan Respublikası MDB və Avropa ölkələri sırasında demoqrafik baxımdan cavan yaş strukturuna malik azsaylı ölkələrdən biridir. Belə ki, 2016-cı ilin əvvəlinə olan məlumatlara əsasən əhalinin ümumi yaş strukturunda gənclərin (14-29 yaşda) payı 27,1%, uşaqların (0-14 yaşda) payı isə 22,5% təşkil etmişdir. Bununla yanaşı, 1990-2016-cı (ilin əvvəlinə) illərdə 0-14 yaş qrupunda olanların sayı 7 % azalmışdır. Eyni zamanda, 65 yaş və daha yuxarı yaşda olan əhalinin sayı 75 % artmışdır. Bu dinamika nəinki əmək bazarına, həm də sosial müdafiə sisteminə müəyyən təsiri olacaq əhalinin yaşlaşma prosesini nümayiş etdirir. Əmək qabiliyyətli yaşda olan əhalinin sayında da əhəmiyyətli artım baş vermişdir. Belə ki, qeyd olunan dövr ərzində 15-64 yaş qrupunda olan əhalinin sayında 56 % artım müşahidə olunmuş və əhalinin ümumi strukturunda 15-64 yaş qrupundan olanların payı 62,3 %-dən 71,3%-ə qədər artmışdır. Beləliklə, növbəti onilliklər ərzində daimi və layiqli iş yerlərinin yaradılmasına böyük ehtiyac olacaqdır.

Bütün cari meyilləri nəzərə alaraq, Azərbaycan Hökuməti yeni iş yerlərinin açılması istiqamətində məqsədyönlü addımlar atmışdır. Həmin addımlara özəl sərmayələrin təşviqi və davamlı müəssisələrin yaradılmasına imkan verəcək mühitin yaradılması daxildir. 2003-2015-ci illər ərzində 1,5 milyon iş yeri açılmışdır ki, onların 1 milyonu daimi olmuşdur[7]. Yeni yaradılmış iş yerlərinin əsas hissəsi (76%) regionların, 88%-i iqtisadiyyatın qeyri-dövlət sektorunun payına düşür. Son 5 il ərzində ölkədə iqtisadi fəal əhalinin sayı 6,2% artaraq 2015-ci ildə 4915,3 min nəfər təşkil etmişdir. Məşğul əhalinin sayı bu müddət ərzində 6,8% artaraq 4671,6 min nəfər, muzdla işləyənlərin sayı isə 8,3% artaraq 1502,5 min nəfər təşkil etmişdir. Yeni iş yerlərinin yaradılması məşğulluğun artmasına təsir göstərmiş və 2015-ci ildə məşğulluq səviyyəsi 62,1 % təşkil etmişdir.

İqtisadi struktur transformasiyasının ardınca ***məşğulluq strukturunun*** dəyişməsi baş vermişdir. Dövlət sektorunda çalışan işçilərin payı 1995-ci ildəki 56%-dən 2015-ci ildə 25,2%-dək azalmışdır. Bu kontekstdə qeyri-dövlət sektorunda çalışan işçilərin və fərdi sahibkarların payı artmışdır.[8] 2015-ci ildə yeni iş yerlərinin 76%-i fərdi sahibkarlar və

[7] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
[8] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

özünəməşğul şəxslər tərəfindən yaradılmışdır. Bu, sabit iqtisadiyyatın göstəricisidir, lakin belə hallar qeyri-formal iqtisadiyyatın yaranması riskini törədir. Ümumiyyətlə, özəl sektor iş yerlərinin yaranmasında əsas rol oynayır, lakin dövlət sektorunda da məşğulluğun əhəmiyyəti danılmazdır.

Tam, məhsuldar, sərbəst seçimli və layiqli məşğulluq istiqamətində edilən ən təqdirəlayiq dəyişikliklərdən biri ***gender bərabərliyi və imkanlar yaradan diversifikasiya*** olmuşdur. Məşğulluq strukturunda qadınların iqtisadi fəallığının və payının artımı müşahidə olunmuşdur. Kişilərin və qadınların iqtisadi fəaliyyəti arasında olan fərq (cinsə görə əmək qüvvəsində iştirak fərqi) 2003-cü ildə 4% təşkil etmişdir ki,[9] bu rəqəm 2015-ci ildə 2,2%-ə enmişdir.[10] İqtisadi fəal əhalinin tərkibində kişilərin payı 51,1%, qadınların payı isə 48,9% təşkil edir. Qadınlar arasında işsizlik səviyyəsi 5,9% (kişilər üzrə 4,1%) təşkil edir. Qadınlar arasında bu işsizlik göstəricisi şəhər yerlərində 6,9% (kişilər üzrə 5%), kənd yerlərində isə 4,8% (kişilər üzrə 3,2%) olmuşdur.

Azərbaycan son 10 il ərzində işsizlik səviyyəsinin azalmasına müvəffəq olmuşdur. 1995-ci ildə BƏT tədqiqatı işsizliyin 17,2% səviyyəsində olmasını müəyyən etmiş, 1999-cu ilin əhalinin siyahıya alınması bu rəqəmi 16,25%, seçmə əsasında 2003-cü ildə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və BƏT birgə iqtisadi fəallıq təhlili 10,7% kimi müəyyən etmiş və növbəti illərdə bu göstərici azalmaqda davam etmişdir. 2015-ci ilin sonunda Dövlət Statistika Komitəsi işsizliyin 5% (4,1% kişi və 5,9% qadınlar arasında) olduğunu bildirmişdir.

Gənclər (15-24 yaş qrupu) arasında işsizlik 2000-ci ildəki 22%-dən 2015-ci ildə 13,4% -dək azalmışdır[11]. Lakin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, yaşa və cinsə görə bölünmüş həmin göstərici kənd və şəhərdə gənc kişi və qadınlar arasında əhəmiyyətli fərqlərin olduğunu aşkarlayır. Məsələn, şəhər yerlərində 20-24 yaş alt-qrupunda gənc qadınlar arasında işsizlik (11,6%) kişilərlə müqayisədə çox aşağıdır (18,8%), kənd yerlərində isə vəziyyət fərqlənir və həmin qrupda göstəricilər qadınlar üçün 18,8%, kişilər üçün isə 5,4% təşkil edir. Eyni zamanda, 15-19 yaş qrupunda şəhərdə qadınlar arasında işsizlik 40,7%, kişilər arasında 28,6%, kənd ərazilərində isə müvafiq olaraq 5,2% və 10% təşkil edir.[12]

ÜDM-in əsas hissəsini yaradan iqtisadi sektorlar məşğulluğun əsas hissəsini yaradan sektorlardan fərqlidir. Məsələn, iş yerlərinin yalnız 1,1%-i neft və qaz sektorunun üzərinə düşür. Kənd təsərrüfatının məşğulluqda payı 36,4%, ÜDM-də isə yalnız 6%[13] təşkil edir və özünü yüksək məhsuldar və səmərəli sektor kimi nümayiş etdirmir.

Bir sıra uğurlu addımların atılmasına baxmayaraq (məsələn, 2014-cü ilin iyul ayından əmək müqavilələrinin elektron qeydiyyatı sisteminin işə salınması), ***qeyri-formal məşğulluq*** qalmaqda davam edir. Yeni elektron sistemin məqsədi işəgötürənlərin fəaliyyətini daha yaxından izləməklə vəziyyətin dəyişdirilməsidir. Buna baxmayaraq, Azərbaycanın diversifikasiya olunmuş və ixtisaslı iş qüvvəsi olan bilik əsaslı iqtisadiyyat kimi yer tutması üçün hələ çoxlu səylər göstərilməlidir.

---

[9] Azərbaycan Respublikasında Analıq və Uşağa Qulluq sistemləri, BƏT 2014
[10] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
[11] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
[12] ƏMƏK BAZARI STATİSTİKASI İLLİK HESABATI 2013, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi http://www.stat.gov.az/source/labour/indexen.php
[13] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Beləliklə, müsbət dəyişikliklərə baxmayaraq, milli əmək bazarı hələ də struktur çatışmazlıqları, o cümlədən, tələb və təklifin uyğunsuzluğu, gənclər arasında nisbətən daha yüksək işsizlik səviyyəsi (25 və daha yuxarı yaşda olanlarla müqayisədə iki dəfə çox) ilə səciyyələnir. İşin həssaslıq və qeyri-formallıq səviyyəsi makroiqtisadi, əmək bazarı və sosial siyasət sahələrində ardıcıl tədbirlərin uzlaşdırılması vasitəsilə məşğulluğun həm keyfiyyətinin və həm də kəmiyyətinin artırılmasını tələb edir.. Bu məsələlər, xüsusilə, aşağı gəlirli sahələrdə (təhsil, səhiyyə, sosial xidmətlər) çalışan qadınlara təsir edir.[14]

Qeyri-bərabər və əsasən neft ixracından əldə olunan gəlirlərindən asılı olmasına baxmayaraq, ölkə iqtisadi artımdan bəhrələnərək qeyri-neft sektorunun diversifikasiyasına və sürətli inkişafına dair iddialı hədəflər müəyyən etmişdir. Həmin məsələlərin həlli məşğulluğa əsaslanan artım strategiyasının və ətraflı məşğulluq siyasəti çərçivəsinin olmasını tələb edəcəkdir. Uzunmüddətli inkişaf strategiyası kimi Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın ardınca, 2016-2030-cu illər üzrə Məşğulluq Strategiyası hazırlanaraq Hökumət tərəfindən 2016-cı ildə qəbul olunacaqdır.

Bundan əlavə, əmək bazarı institutları baxımından, dövlət məşğulluq xidmətinin imkanları yeni Məşğulluq Strategiyasının daha yaxşı tətbiqi üçün gücləndirilməli, daha geniş əhali kütləsini əhatə etməli və işə düzəlmə, karyera inkişafı və peşə bacarıqlarının əldə olunması probleminin həllinə yönəlmiş geniş aktiv tədbirlərin həyata keçirilməsinə imkan verməlidir. Əmək bazarının məlumat sistemləri də təkmilləşdirilməlidir. Bundan başqa, məşğulluq siyasəti ətrafında konsensusun əldə edilməsində inklüziv və geniş sosial dialoq əsas rol oynaya bilər.

## Sosial müdafiə və iş şəraiti

Artıq qeyd edildiyi kimi, son 10 il ərzində Azərbaycan geniş iqtisadi artıma nail olmuşdur. Artımın geniş yayılmasının təmin edilməsi üçün Azərbaycan əməkhaqlarının və əhaliyə transferlərin artırılması siyasətini həyata keçirmişdir. 2000-2010-cu illər ərzində, minimum əməkhaqqı kəskin aşağı olan 1,1 manatdan 85 manata qədər artmışdır. 2013-cü ilin sentyabrın 1-ə olan vəziyyətə görə minimum aylıq əməkhaqqı 105 manat səviyyəsində, yəni əvvəlki göstəricidən 25% daha yüksək səviyyədə müəyyən edilmişdir. Orta aylıq əməkhaqqı da 2000-ci ildəki 44,3 manatdan hər il orta hesabla 20% artaraq 2009-cu ildə 298 manat olmuş və toplam 6,7 dəfə artmış, böhran dövründə və daha sonra artmaqda davam etmiş və 2015-ci ildə 466,9 manat təşkil etmişdir ki, bu da 2013-cü ilin göstəricisindən 9,8% çoxdur[15].

2014-cü ilin may ayında Azərbaycan Respublikasında BMT-nin Ölkə üzrə İdarə Heyəti tərəfindən hazırlanmış ölkə təhlilinə görə, əməkhaqlarında regionallar və gender üzrə əhəmiyyətli fərqləri müşahidə olunur. Qadınların orta əməkhaqqı məbləği kişilərin əməkhaqqı məbləğinin yalnız 54%-ni təşkil edir[16]. Bu vəziyyət qanunla qadağan olunan

---

[14] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanda Qadın və Kişi", Bakı, 2004-2013
[15] Wage Indicator Fund http://www.mojazarplata.az/main/srednjaja-zarabotnaja-plata-v-azerbadzhane
[16] Azərbaycan Respublikasında Analıq və Uşağa Qulluq sistemləri, BƏT 2014, səh. 11

eyni iş üçün qeyri-bərabər ödəniş edilməsindən qaynaqlanmır[17]. Müşahidə olunan fərqin başlıca səbəbi qadınların əsasən əməkhaqlarının aşağı səviyyədə olduğu səhiyyə, təhsil, sosial müdafiə kimi sahələrdə çalışması ilə bağlıdır.

2000-ci illərdə, Azərbaycan Sovet İttifaqından miras qalmış ***sosial müdafiə sisteminin*** hərtərəfli islahatlarına başlamışdır. Kasıb təbəqə üçün sosial yardım sosial sığortadan və pensiya təminatından ayrılmış və bunların idarə olunması 2 ayrı dövlət orqanı tərəfindən həyata keçirilmişdir. Sosial yardım sistemi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN), sosial sığorta isə Dövlət Sosial Müdafiə Fonduna (DSMF) yönəldilmişdir. 2016-cı ildə DSMF ƏƏSMN-nin strukturuna daxil edilmişdir.

2006-cı ildə başlanılan ünvanlı sosial yardım (ÜSY) proqramı 2009-cu ildə təxminən 750.000 nəfər üzvü olan 164.000 ailəni (əhalinin 8,2%-ni) əhatə etmişdir. 2013-cü ildə, sosial transferlər, birbaşa və ya dolayı olaraq əhalinin üçdə ikisini və yoxsulların 81,2%-ni əhatə etmiş və ünvanlılığın yüksək səviyyəsini göstərmişdir.[18] Adambaşına düşən aylıq sosial müavinət və kompensasiyalar 2009-cu ildəki 34 manatdan 2013-cü ildə 152 manata ($183), aylıq təqaüdlər 96 manatdan 117 manatadək ($149) və dövlət sosial yardımları 22 manatdan 26 manatadək ($33) artmışdır.[19]

BƏT tərəfdaşları təhlükəsiz və layiqli iş yerlərinin yaradılması hesabına ***iş şəraitinin*** təkmilləşdirilməsini mühüm hesab edir. Bu baxımdan, Əməyin Təhlükəsizliyi və Mühafizəsi (ƏTM) çərçivəsində BƏT-in 187 saylı konvensiyasına uyğun olaraq, Milli ƏTM Proqramının hazırlanması məqsədi ilə Azərbaycan öz ƏTM sisteminin təkmilləşdirilməsini aparır. Bura müəssisədə qabaqlayıcı tədbirlərə əsaslanan ƏTM idarəetmə sistemi (ƏTM İS) üçün qanunvericilik bazasının yaradılması və onun praktiki tətbiqi də daxildir. Bundan başqa, Əmək Müfəttişliyinin məsləhət və peşəkar xidmətlərinin gücləndirilməsi məqsədilə əməyin təftişi (ƏT) ilə bağlı konvensiyaların praktiki tətbiqi də buraya daxildir. İşdə Təhlükəsizlik və Sağlamlıq üzrə Milli Üçtərəfli Sosial Şura 2012-ci ildə yaradılmışdır. Əməyin təhlükəsizliyinə dair 155 saylı Konvensiyanın ratifikasiyası məsələsi Azərbaycan tərəfindən baxılmaqdadır.

## Beynəlxalq Əmək Standartları

Azərbaycan regionda ən yüksək ratifikasiya göstəricilərinə malikdir. Belə ki, 57 BƏT konvensiyasını (onlardan 45 texniki konvensiyasını) və 1 protokolu, o cümlədən, bütün səkkiz fundamental konvensiyanı, bütün dörd prioritet konvensiyanı və Əmək Müfəttişliyi Konvensiyasına dair 1995-ci il tarixli Protokolu ratifikasiya etmişdir. Ratifikasiya olunmuş konvensiyalar milli qanunvericiliyə müəyyən dərəcədə inteqrasiya edilmişdir, lakin bir neçə sahədə həm qanunvericilikdə, həm də təcrübədə tam uyğunluğun təmin edilməsi üçün BƏT Azərbaycanla dialoqunu davam etdirir.

Son illər ərzində hökumət Azərbaycan Respublikasının Əmək Məcəlləsi və əlaqəli qanunların təkmilləşdirilməsi istiqamətində addımlar atmışdır. Lakin bir sıra məsələlər qalmaqdadır. Məsələn, "Minimum yaş həddi haqqında" 138 saylı Konvensiyanın ratifikasiyası zamanı Hökumət minimal işəgötürmə yaşının 16 olduğunu qeyd etmişdir, milli qanunvericilikdə isə bu göstərici 15 yaş təşkil edir. Bundan əlavə, uşaq əməyi daxil

[17] Azərbaycan Hökuməti. Azərbaycan Respublikasının Əmək Məcəlləsi 1999; Gender Bərabərliyi haqqında qanun 2006. Bakı.
[18] Azərbaycan Ölkə təhlili, BMT-nin Azərbaycan Respublikasında Ölkə Qrupu, may 2014
[19] http://www.azstat.org/MESearch/search?departament=30&lang=en

olmaqla, əməyin qəbul olunmaz formaları, gender və digər əsaslı istənilən ayrı-seçkiliyin ləğv edilməsində qalan boşluqların aradan qaldırılması üçün səylərin davam etdirilməsi tələb olunur.

**Sosial dialoq və üçtərəflilik**

Azərbaycanda işçilərlə işəgötürənlər arasında olan münasibətlərin uzun tarixi vardır. İlkin sosial dialoq neft sənayesinin inkişafından başlanmış və ilk kollektiv saziş neft işçiləri ilə işəgötürənlər arasında 1904-cü ilin dekabr ayında imzalanmışdır.

Müasir dövrdə Azərbaycanda sosial dialoq üçtərəfli münasibətləri əhatə edir. Bu, ölkənin 1992-ci ildə Beynəlxalq Əmək Təşkilatına üzvlüyü ilə başlamışdır. BƏT-də üzvlük üçtərəfliliyə marağın artmasına güclü təsir göstərmişdir. Həmin dövrdən Azərbaycan sosial dialoqla əlaqəli BƏT-in fundamental Konvensiyalarını ratifikasiya etmişdir[20].

Sosial dialoqda iştirak edən üç tərəf - Hökumət, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Həmkarlar İttifaqları Konfederasiyasıdır. BƏT-in texniki dəstəyi ilə milli səviyyədə aparılmış üçtərəfli məsləhətləşmələrin nəticəsi olaraq 1999-cu ildə Azərbaycan Respublikasının Əmək Məcəlləsi qəbul edilmişdir. Əmək Məcəlləsi əmək münasibətlərinin hərtərəfli tənzimlənməsini təmin edir. Lakin şirkət, sektor və ya milli səviyyələrdə kollektiv məsləhətləşmələrə yetərincə yer ayrılmır.

Ölkədə və beynəlxalq səviyyədə tanınmış əsas həmkarlar ittifaqı təşkilatı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasıdır (AHİK). AHİK 2000-ci ildən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) üzvüdür. Hazırda Konfederasiya 1,2 milyon üzvü olan 26 üzv həmkarlar ittifaqı təşkilatını birləşdirir; həmkarlar ittifaqları üzvlərinin 42,7%-i qadınlardır. Sahə həmkarlar ittifaqları təşkilatlarının əksəriyyəti Qlobal İttifaqlar Federasiyalarının üzvüdürlər. Həmkarlar ittifaqı və işəgötürənlər arasında sosial dialoqun və kollektiv danışıqların nəticəsi olaraq kollektiv sazişlər ölkə işçilərinin əksəriyyətini əhatə edir.

1999-cu ildə rabitə, sığorta, bank və digər sektorlarda çalışan 11 iri şirkət tərəfindən Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) yaradılmışdır. Hazırda ASK 40 sektorda fəaliyyət göstərən 1300 şirkəti birləşdirir, onun 22 regional filialı vardır, lakin çoxmilli şirkətlər burada təmsil olunmayıbdır.

Azərbaycanda ölkə səviyyəsində sosial dialoq üzrə daimi üçtərəfli orqan yoxdur. 2012-ci ildə üzvlərin ƏTM sahəsində fəaliyyətlərin birləşdirilməsi və əlaqələndirilməsi məqsədilə Əmək Təhlükəsizliyi və Sağlamlıq üzrə Milli Üçtərəfli Şura yaradılmışdır. Eyni zamanda, tələb olunduğu halda toplanan Baş Kollektiv Sazişin baxılmasına dair Üçtərəfli Komitə mövcuddur. Üçtərəfli üzvlərin müntəzəm görüşməsi, vacib əmək və sosial məsələlərin müzakirə edilməsi və birgə fəaliyyətin əlaqələndirilməsi məqsədilə hökumətin və sosial tərəfdaşların iqtisadi və sosial məsələlərə dair milli üçtərəfli şuranın yaradılmasının lehinə ümumi mövqeyi vardır. Üçtərəfli müzakirələrin nəticəsi olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın Əsasnaməsi"ni və Komissiyanın təsis edilməsi üçün qərar layihəsini hazırlamışdır. BƏT-in texniki və ekspert dəstəyindən bəhrələnərək, ƏƏSMN tərəfindən 2014-cü ilin sonunda üçtərəfli konfrans təşkil edilmişdir. Tədbir zamanı tərəfdaşlar

[20] 87, 98, 135, 144 və 154 saylı BƏT Konvensiyaları.

sərəncamın qəbul edilməsinin sürətləndirilməsinə olan ehtiyacı və Üçtərəfli Komitənin tam işlək vəziyyətə gətirilməsi işlərinin yekunlaşdırılmasında maraqlı olduqlarını bildirmişlər.

Təxminən 2 il öncə "elektron hökumət" çərçivəsində ölkədə tətbiq olunmuş yeni sistem vasitəsilə bütün əmək müqavilələri, iş və işəgötürmə şəraiti, eləcə də, işçilərin və işəgötürənlərin qarşılıqlı öhdəlikləri və hüquqları rəsmi qeydiyyata alınır və hüquqi qüvvəyə minir. Bu sistem 60 mindən çox işəgötürənə dair məlumatı özündə əks etdirir. Burada eyni zamanda əmək müqavilələrinin növləri, tarif dərəcələri, iş şəraiti, hər bir işçinin ödənişli məzuniyyət müddətləri, əmək müqaviləsinə xitam verilməsinin əsasları pozulmasının əsasları və s. kimi məlumatlar da əks etdirilir. Bu məlumatlar aidiyyəti üzrə hər hökumət orqanına və hər fərdi işəgötürənə və işçiyə açıqdır. Sistem bütün sektorlarda iqtisadi və sosial meyillərə dair dəyərli statistik məlumatları təmin edir. Əmək münasibətləri sahəsində yeni elektron idarəetmə sistemi gələcək iş üçün əhəmiyyətli məlumatlandırma və təşviqat kanalı kimi istifadə oluna bilər.

## II. Əvvəlki əməkdaşlıq təcrübəsi

Artan templə inkişaf edən Azərbaycanla BƏT arasındakı əməkdaşlıq BƏT-in Layiqli Əmək Konsepsiyasının anlaşılmasına və qəbul olunmasına töhvə vermiş və Hökumət, AHİK və ASK tərəfindən Layiqli Əmək üzrə Ölkə Proqramının hazırlanması üçün əsas yaratmışdır.

Son bir neçə il ərzində Azərbaycanda hökumətin və sosial tərəfdaşların məşğulluğun təşviqi, gənclər arasında məşğulluğun artırılması, bacarıqların inkişaf etdirilməsi, peşə təhlükəsizliyi və sağlamlıq, uşaq əməyi və digər məsələlərə dair ən əhəmiyyətli prioritetləri və ehtiyacları əhatə edən bir neçə BƏT texniki əməkdaşlıq layihəsi icra olunmuşdur. BƏT layihələri arasında qarşılıqlı əlaqələr və münasibətlər səmərəliliyin təmin edilməsi məqsədilə gücləndirilmişdir.

2011-2015-ci illərin **ən vacib nailiyyətləri** sırasında aşağıdakıları qeyd etmək olar:

- İş yerində təhlükəsizlik və sağlamlıq üzrə Milli Üçtərəfli Sosial Şura təsis edilmiş və sosial dialoq üzrə milli üçtərəfli komissiyanın yaradılması üçün zəmin yaradılmışdır (2012);
- Ailə Vəzifələri olan İşçi lər haqqında 156 saylı və Analığın Mühafizəsi haqqında 183 saylı Konvensiyalar ratifikasiya edilmişdir (2010);
- analığın müdafiəsinə dair qanunvericiliyin, tədbirlərin və təcrübələrin siyasi baxımdan nəzərdən keçirilməsinin və təhlilinin nəticələrinə əsasən beynəlxaq standartlara, daha dəqiq BƏT-in Analığın Mühafizəsi haqqında 183 saylı və Əməyin Bərabər ödənilməsi haqqında 100 saylı konvensiyalarına uyğunluğun təmin edilməsi məqsədilə Əmək Məcəlləsinə dəyişikliklər edilmişdir (2013);
- Azərbaycanda dövlət məşğulluq xidmətlərinin müasirləşdirilməsinə dəstək göstərilmişdir, o cümlədən, həssas və hədəf qrupları üçün bir sıra əmək bazarı proqramlarının ƏƏSMN yanında Dövlət Məşğulluq Xidmətinin cari fəaliyyətinə daxil edilməsi məqsədi ilə sınaqdan keçirilməsi (2012-2013);
- gənclərə hədəflənən iki Aktiv Əmək Bazarı Proqramının sınaqdan keçirilməsi: (i) kənd yerlərində gənc işaxtaranlar üçün sahibkarlıq proqramına dəstək və (ii) şəhər yerlərində gənc məzunlar üçün təlimlər (2014-2015);

- üçtərəfli tərəfdaşların tərtib etdiyi Ayrı-seçkiliyə Qarşı Tədbirlər Planına uyğun olaraq, iş yerində ayrı-seçkiliyə yol verilməməsi və bərabərliyin təmin edilməsi imkanları artırılmışdır; Azərbaycanın 7 regionunda AHİK tərəfindən ayrı-seçkiliyə və gender bərabərsizliyinə qarşı məlumatlandırma kampaniyası aparılmışdır (2013);
- Layiqli Əmək üzrə Ölkə Tədqiqatı hazırlanmışdır, BƏT tərəfdaşları və digər milli iştirakçılar ölkə səviyyəsində layiqli əmək sahəsində olan vəziyyət və inkişaf, eyni zamanda, layiqli əmək məqsədlərinə nail olunması istiqamətində ölkənin qarşısına çıxan əsas problem və maneələr haqqında təhlil və məlumatlarla təmin edilmişlər (2011).

2011-2015-ci illər ərzində Azərbaycanda **Layiqli Əmək gündəliyinin icrasının nəticələri** və sosial dialoq üzrə BƏT-in yerli iştirakçılarla apardığı işin (2015) qiymətləndirilməsi yeni 2016-2020 LƏÖP-nin icrası zamanı nəzərə alınmalı bir neçə vacib məsələnin olduğunu aşkarlamışdır.

- 2011-2015-ci illər ərzində Azərbaycanda əldə edilmiş müsbət nəticələr üçtərəfli iştirakçıların BƏT dəyərlərinə böyük önəm verməsi, Layiqli Əmək Gündəliyinin təbliğ edilməsi sahəsində üçtərəfli səylərin göstərilməsi və milli ekspertlərin yüksək peşəkarlığı və səriştələri sayəsində baş vermişdir. Yeni LƏÖP-nin icrasında həmin amillər eynilə əhəmiyyətlidir.
- LƏÖP, onda planlaşdırılmış nəticələrin həyata keçirilməsi üçün strateji və vahid yanaşma tələb edir. Ən mühüm nəticələrin əldə edilməsi, o cümlədən yeni Milli Məşğulluq Strategiyasının hazırlanması, Milli Üçtərəfli Komissiyanın yaradılması, Əmək Müfəttişliyinin gücləndirilməsi məqsədilə birgə fəaliyyətin hədəfinin seçilməsi istiqamətində xüsusi səy göstərilməlidir. Müxtəlif sahələrdəki tədbirlər bölünməməli, əksinə vahid LƏÖP baxımından ümumi məqsədlərə nail olunmasına yönəldilməlidir.
- LƏÖP-in effektiv icrası üçün sosial dialoq mexanizmlərinin yenidən canlandırılması və yaxşı fəaliyyət göstərməsi mühüm şərtlərdən olacaqdır. Milli Üçtərəfli komissiyanın fəaliyyətinin rəsmiləşdirilməsi, o cümlədən, onun texniki Katibliyinin yaradılması əsas prioritetlərdəndir.
- BƏT-in nəzarət qurumları tərəfindən son dövrlərdə şərh və tövsiyələrin verildiyi BƏT konvensiyalarına xüsusi diqqət yetirilməlidir. Hazırda Azərbaycanda ratifikasiya üçün təqdim edilmiş 102, 128, 155, 168, 184 və 187 saylı konvensiyaların ratifikasiya edilməsinə əlavə yardım göstərilməlidir. Ümumilikdə, LƏÖP-də müəyyənləşdirilən hər 3 prioritetin tətbiqi üçün BƏT-in Beynəlxalq Əmək Standartları rəhbər tutulacaqdır.
- Sosial tərəfdaşlar şəbəkəsinin genişləndirilməsi üçün elektron vasitələrdən istifadə edilməsi - yeni qurulmuş "elektron hökumət" (e-Hökumət) sistemindən yeni rabitə kanalı kimi istifadə gələcək iş üçün əhəmiyyətli olacaqdır.
- Ölkədə LƏÖP ilə bağlı məlumatlılıq və əlaqələndirmə səviyyəsinin artırılması.
- Azərbaycan - BƏT əməkdaşlığının davamlılığı amili və tərəfdaşların BƏT dəstəyinin əldə edilməsində maraqlı olmalarının əlaməti kimi tərəfdaşlarla məsrəflərin bölüşdürülməsi (töhvə verməklə) imkanlarının nəzərdən keçirilməsi.

## III. Ölkə proqramının prioritetləri və nəticələri

Milli tərəfdaşlar layiqli əməyi Azərbaycanın iqtisadi və sosial siyasətinin əsas məqsədlərindən biri kimi qiymətləndirir. BƏT-in mandatına və BƏT-in müqayisəli üstünlük sahələrinə uyğun sektorlarda mövcud vəziyyət nəzərə alınaraq aşağıdakı ölkə prioritetləri müəyyən edilmişdir:

*Prioritet 1. İnklüziv artım üçün layiqli əmək imkanlarının və keyfiyyətli iş yerlərinin təşviqi*

*Prioritet 2. Sosial müdafiənin və iş şəraitlərinin təkmilləşdirilməsi*

*Prioritet 3. Əməyin idarəedilməsinin və sosial dialoq mexanizminin gücləndirilməsi*

LƏÖP-ün həyata keçirilməsinin əhəmiyyətini nəzərə alaraq, Proqramda müəyyənləşdirilən hər 3 prioritetin tətbiqi üçün BƏT-in Beynəlxalq Əmək Standartları rəhbər tutulacaqdır.

### Prioritet 1. İnklüziv artım üçün layiqli əmək imkanlarının və keyfiyyətli iş yerlərinin təşviqi

***Nəticə 1.1: Layiqli iş yerlərini və inklüziv artımı təşviq edən Milli Məşğulluq Strategiyası hazırlanmışdır və həyata keçirilir.***

Azərbaycan hazırda növbəti illər üçün məşğulluq siyasətini formalaşdırır və ölkənin milli prioritetlərinə, iqtisadi inkişaf perspektivlərinə və mövcud demoqrafik meyillərinə əsaslanaraq, tam və səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş müvafiq institusional islahatlar həyata keçirir. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası layihəsinin hazırlanması üçün aidiyyəti nazirliklərin, dövlət orqanlarının, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasının və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət Nazirliklərarası İşçi Qrupu yaradılmışdır. Məşğulluq Strategiyası layihəsinin hazırlanmasında, onun məqsədləri, prioritetləri və əmək bazarında siyasətlərin müəyyənləşdirilməsində Beynəlxalq Əmək Təşkilatının ekspertləri İşçi Qrupuna texniki dəstək göstərmişlər.

Beynəlxalq Əmək Təşkilatının təşəbbüsü ilə 2016-cı ilin fevral ayında İşçi Qrupunun nümayəndələri və digər maraqlı tərəflər üçün "Məşğulluq Siyasətinin Formalaşdırılması" adlı xüsusi hazırlanmış təlim kursu keçirilmişdir. Tədbir Azərbaycanın əmək bazarındakı vəziyyət, müşahidə olunan meyillər, əldə olunmuş nailiyyətlər və 2016-2030-cu illər üzrə Milli Məşğulluq Strategiyasında əksini tapacaq problemlərin geniş müzakirəsi formatında təşkil olunmuşdur. Bununla yanaşı, BƏT-in ekspertləri milli tərəfdaşlara "Azərbaycanda mövcud makroiqtisadi vəziyyət və onun əmək bazarına təsiri" və "Məşğulluq siyasətinin

formalaşdırılmasında beynəlxalq təcrübə" mövzularında hazırlanmış təhlillərini[21] təqdim etmişlər. Bu, 2016-2030-cu illər üzrə Milli Məşğulluq Strategiyasının hazırlanması üçün bünövrə yaratmışdır.

BƏT bu prosesə diaqnostika və siyasət məsləhətləri ilə əlavə töhvə verməklə, Azərbaycana "2030 Gündəliyi"nin icrasında yardım etmək üçün dəvət olunmuşdur. Strategiyanın icrası mərhələsində BƏT-in BMTİP ilə əməkdaşlıq şəklində iştirakı da nəzərdə tutulur.

BƏT iş yerlərinin sayının artımı ilə nəticələnən iqtisadi artımın stimullaşdırılması variantlarının təqdim edilməsi öhdəliyini götürmüşdür. Təklif və tələb tərəflərinin hər ikisinə təsir edəcək tədbirlər paketi və həmçinin əmək bazarını tənzimləyən qurumlara dair məlumat Hökumətə təqdim edilməlidir.

BƏT tərəfdaşlarına mövcud əmək bazarı siyasətlərinə təsir göstərən qanun və qaydaların təkmilləşdirilməsi ilə bağlı əlavə dəstək göstəriləcəkdir.

**İndikatorlar:**

- Milli Məşğulluq Strategiyasının hazırlanmasının dəstəklənməsi məqsədi ilə BƏT-in sosial tərəfdaşları ilə aparılmış məsləhətləşmələrin sayı;
- Milli məşğulluq siyasətinin formalaşdırılması, tətbiqi və yenidən baxılması üçün nazirliklərarası koordinasiya mexanizmi tərəfindən müdaxilələrin sayı;
- üçtərəfli məsləhətləşmələr və milli tərəfdaşlarla dialoq vasitəsilə Milli Məşğulluq Strategiyası hazırlanmışdır;
- Milli Məşğulluq Strategiyasına daxil edilmiş gender aspektini nəzərə alan məşğulluğa yönəlmiş siyasi tədbirlərin sayı.

***Nəticə 1.2: Gənc qadın və kişilərə yönəlmiş aktiv əmək bazarı proqramları hazırlanmış və tərəfdaşlar tərəfindən onların icrası təmin edilmişdir.***

Üçtərəfli tərəfdaşlar mövcud qanunlara, qaydalara və normativ sənədlərə əlavələrin edilməsi ilə əmək bazarına dair siyasətlərin təkmilləşdirilməsində fəal iştirak edirlər. Sosial dialoq əmək bazarında mövcud çağırışların və məşğulluq üzrə çatışmazlıqların aradan qaldırılması üçün alət kimi istifadə olunur.

BƏT əmək bazarı institutlarına və qeyri-formal məşğulluqdan formal məşğulluğa keçmək istəyənlərə potensialın artırılması üçün dəstəyk göstərəcəkdir. BƏT tərəfdaşlarına layiqli əməyə kompleks yanaşmanın tətbiqi, o cümlədən qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidin dəstəklənməsi üçün tədbirlərin hazırlanması yolu ilə Fəal Əmək Bazarı Siyasətlərinin (FƏBS) hazırlanmasında yardım edəcəkdir. Bu yanaşma makroiqtisadi və ünvanlı əmək bazarı müdaxilələrini birləşdirəcək və məşğulluğun həm kəmiyyət, həm də keyfiyyət aspektləri təmin edilmiş olacaqdır.

Gənclərin məşğulluğunun dəstəklənməsi milli prioritet olaraq qalır. BƏT gənclərlə bağlı əmək bazarında olan vəziyyətin təhlilinə və gənclərin məşğulluğunu dəstəkləyən FƏBS-lərin hazırlanmasına dəstək verəcəkdir.

Hökumət qurumlarına və sosial tərəfdaşlara yönəlmiş və əmək bazarı siyasətlərinin formalaşdırılması və icrası prosesini gücləndirəcək imkanların artırılması əmək bazarı

[21] "Azərbaycanda ilkin mərhələdə aktiv tədbirlərlə müşayiət olunacaq büdcə konsolidasiyasının aparılmasına ehtiyac varmı?" İşçi Sənədi, LƏTDQ/BƏT-in Ölkə Ofisi, Moskva

sahəsində olan bütün tədbirlərə əhəmiyyətli dərəcədə əlavə dəyər verəcəkdir. Əmək bazarının təkmilləşdirilməsinə yönəlmiş təşəbbüslərin və onların icrasında digər strateji əhəmiyyətli tərəfdaşların cəlb edilməsində birgə fəaliyyətin və əlaqələndirmənin təmin edilməsi sahəsində xüsusi səylər göstəriləcəkdir.

**İndikatorlar:**

- BƏT-in texniki dəstəyi ilə gənc işaxtaranlar üçün hazırlanmış və tətbiq olunmuş xüsusi proqramlar və tədbirlərin sayı;
- gənclərə keyfiyyətli xidmətlərin göstərilməsi sahəsində bilik və bacarıqlarının artırılması üçün ixtisasartırma kurslarına cəlb edilmiş Dövlət Məşğulluq Xidmətinin işçilərinin sayı;
- BƏT-in dəstəyi ilə hazırlanmış tədbirlər nəticəsində layiqli əmək imkanlarına çıxış əldə etmiş gənclərin (cinslərə bölgü ilə) sayı.

***Nəticə 1.3. Özünüməşğulluqla bağlı əmək bazarı proqramları hazırlanmışdır və tərəfdaşlar tərəfindən həyata keçirilir.***

Dövlət məşğulluq siyasətinin əsas prioritetlərindən biri əhalinin özünüməşğulluğunun inkişafı üçün müvafiq şərait yaratmaqla, işsizlərin məşğulluq imkanlarını artırmaqdır. Özünüməşğulluğa şərait yaratmaq üçün nəzərdə tutulan təlim proqramları və qısamüddətli kurslar əmək qabiliyyəti olan işsiz insanların iş tapmasına yönəldilmiş əmək bazarı siyasətlərinin vacib elementləridir.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 aprel tarixli Sərəncamı ilə əhalinin özünüməşğulluğuna kömək göstərilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 6,0 (altı) milyon manat vəsait ayrılmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Beynəlxalq Əmək Təşkilatı tərəfindən Göyçay rayonunda birgə həyata keçirilən "Gənc sahibkarlar üçün subsidiya proqramı" pilot layihəsi çərçivəsində 21 potensial sahibkar gəncə adambaşına orta hesabla 3000 (üç min) manat məbləğində maliyyə vəsaiti ayrılmaqla, 61000 (altmış bir min) manatdan artıq vəsait sərf olunmuş və bu layihə uğurla icra olunmuşdur.

BƏT-in geniş beynəlxalq təcrübəsini, o cümlədən Göyçay rayonunda həyata keçirilmiş "Gənc sahibkarlar üçün subsidiya proqramı" pilot layihəsinin pozitiv nəticələrini nəzərə alaraq, BƏT işsizlərin özünüməşğulluq imkanlarını artırmaq məqsədi ilə yuxarıda qeyd olunan tədbirləri dəstəkləmək üçün müvafiq texniki yardım (baş təlimçilərin ayrılması, təlim proqramlarının (Biznesini Başlat və Təkmilləşdir) təqdim olunması, həm regional təlimçilər, həm də potensial sahibkarlar üçün təlimlərin təşkil olunması) göstərəcəkdir.

**İndikatorlar:**

- BƏT-in dəstəyi ilə ƏƏSMN tərəfindən hazırlanmış və sınaqdan keçirilmiş özünüməşğulluqla bağlı proqramların sayı;
- BƏT-in dəstəyi ilə hazırlanmış özünüməşğulluqla bağlı təlim proqramları/kurslarına çıxış əldə edən işsizlər və işaxtaranların (cinslərə bölgü ilə) sayı;

- təlim proqramları nəticəsində iş tapan insanların (cinslərə bölgü ilə) sayı.

**Prioritet 2. Sosial müdafiənin və iş şəraitlərinin təkmilləşdirilməsi**

***Nəticə 2.1: Yeni işsizlikdən sığorta sistemi hazırlanmışdır və tətbiqinə başlanılmışdır***

Məqsədi Azərbaycanda milli sosial müdafiə sisteminin təkmilləşdirilməsi olan, sosial sığortaya əsaslanan işsizlik müavinətləri və müxtəlif əmək bazarı tədbirlərini əhatə edən yeni işsizlikdən sığorta sisteminin tətbiqi siyasətin əsas elementlərindən birini təşkil edir.

Hazırki işsizlikdən sığorta sistemi işin itirilməsi zamanı kifayət qədər gəlir zəmanəti təmin etmir. Azərbaycanda işsizlikdən sığorta sistemi ilə bağlı iki çağırış mövcuddur: əhatəlilik və müavinətin miqdarı. Əhatəliliyə gəldikdə, işsizlik müavinəti almaq hüququ olan şəxslərin sayı hələ də məhduddur. Müavinətin miqdarı baxımından isə Azərbaycanda hazırda bunun məbləği əvvəlki gəlir səviyyəsinə bağlıdır, lakin maksimal işsizlik müavinətinin məbləği ölkə üzrə orta aylıq əmək haqqına uyğundur.

Azərbaycanda işsizlikdən sığorta sistemində islahatın dəstəklənməsi üçün Sosial Təminatın Minimum Normaları haqqında 102 saylı Konvensiyanın 4-cü hissəsinə uyğun olaraq, BƏT işsizlikdən sığorta sisteminə dair yeni qanun layihəsinin nəzərdən keçirilməsində texniki yardım göstərəcəkdir. Biliyin paylaşılması və potensialın gücləndirilməsi prosesinin bir hissəsi kimi BƏT işsizlikdən sığorta ilə bağlı beynəlxalq təcrübə ilə paylaşaraq texniki dəstək göstərəcəkdir.

**İndikatorlar**:

- üçtərəfli işçi qrupu tərəfindən təşkil olunacaq işsizlikdən sığorta sisteminin islahatına dair siyasi dialoq;
- 102 saylı BƏT Konvensiyasına əsasən yenidən işlənmiş işsizlikdən sığorta sistemi;
- sosial tərəfdaşların cəlb olunması ilə hazırlanmış yeni "İşsizlikdən sığorta" haqqında Qanun.

**Nəticə 2.2. Milli Əməyin Təhlükəsizliyi və Mühafizəsi (ƏTM) sistemi beynəlxalq əmək standartlarına uyğun olaraq müasirləşdirilmişdir**

Azərbaycanda kişi və qadınların iş şəraitlərinin yaxşılaşdırılması vacib milli məqsədlərdən biri hesab olunur. Son illərdə hökumət tərəfindən (ƏTM) sisteminin gücləndirilməsi üçün xüsusi səylərin göstərilməsinə və ƏTM, ekologiya və ətraf mühit məsələlərinin bir sıra dövlət proqramlarında əks olunmasına baxmayaraq, ƏTM sahəsində əsas prioritetləri müəyyənləşdirən strategiya və ya dövlət proqramı qəbul edilməmişdir.

Milli ƏTM Strategiyasının, ƏTM Proqramının hazırlanması və qəbul olunması, müəssisələrdə ƏTM idarəetmə sisteminin tətbiq olunması da daxil olmaqla milli ƏTM sisteminin BƏT-in 155 və 187 saylı Konvensiyalarına uyğun təkmilləşdirilməsi zamanı sistemli yanaşmanın tətbiq olunmasında tərəfdaşlara dəstək göstəriləcəkdir. BƏT ƏTM siyasətlərinin hazırlanması və həyata keçirilməsində tərəfdaşların potensialını gücləndirəcək və bu sahədə beynəlxalq təcrübəyə dair biliyin paylaşılmasını təmin edəcəkdir.

Milli tərəfdaşlara ƏTM məsələləri ilə bağlı sosial dialoq üçün məsləhətləşmə mexanizminin hazırlanmasında da yardım göstəriləcəkdir.

Bu Nəticənin uğurlu şəkildə əldə olunması üçün iş yeri tələblərinə uyğunluq ilə bağlı Nəticə 3.1-də Əmək Müfəttişliyi üçün nəzərdə tutulmuş fəaliyyətlərlə güclü əlaqələndirmələr yaradılacaqdır.

**İndikatorlar:**

- Milli ƏTM strategiyası BƏT-in 155 və 187 saylı konvensiyalarının müddəalarına uyğundur;
- Dövlətlərarası GOST 12.0.230-2007 (ILO-OSH 2001) Azərbaycanın ƏTM sahəsində qanunvericiliyinə daxil edilmişdir;
- Əmək Müfəttişliyinin işinə yeni metodlar daxil edilmişdir;
- ƏTM idarə olunması sistemini (GOST 12.0.230-2007), o cümlədən riskin qiymətləndirilməsini tətbiq edən müəssisələrin (və ya sektorların) sayı.

**Prioritet 3. Əməyin idarə edilməsinin və sosial dialoq mexanizmlərinin gücləndirilməsi**

***Nəticə 3.1: İş yeri tələblərinə uyğunluğun gücləndirilməsi məqsədi ilə Əmək Müfəttişliyinin və sosial tərəfdaşların potensialı artırılmışdır***

Azərbaycanın Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) 2011-ci ildə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birbaşa nəzarəti və əlaqələndirilməsi ilə yaradılmışdır. Hazırda, DƏMX-in modernizasiya və potensialının artırılması prosesinin davam etdirilməsinə ehtiyac duyulur. 2015-ci ildə Soçi şəhərində təşkil olunmuş Şərgi Avropa və Mərkəzi Asiyada Əmək Müfəttişliyinə dair sub-regional üçtərəfli konfrans zamanı Azərbaycandan olan üçtərəfli tərəfdaşlar Əmək Müfəttişliyi ilə bağlı əsas məsələləri aşağıdakı kimi müəyyən etmişlər: qabaqlayıcı və nəzarət tədbirlərinin tarazlaşdırılmış istifadə olunmasına dair siyasətlərə tələbat; institusional bazanın artırılması üçün maliyyə, kadr və texniki resursların gücləndirilməsi; əməyin idarə edilməsi və digər tərəfdaşlar səviyyəsində əhatəli və əlaqələndirilmiş məlumat bazaları və alətlərə ehtiyac; həm DƏMX-nin rəhbərliyi səviyyəsində, həm də əmək müfəttişləri üçün təlimlər.

BƏT hökumətə və sosial tərəfdaşlara aşağıdakı sahələrdə məsləhət və texniki dəstək təmin edəcəkdir:

- milli və sektor səviyyəsində sosial tərəfdaşlarla məsləhətləşmələr əsasında nəzarətedici, qabaqlayıcı tədbirlərin gücləndirilməsi və iş yeri tələblərinə uyğunluğun təmin edilməsi strategiyasının hazırlanması və icrası;
- iş şəraitinin təkmilləşdirilməsinə dair milli qanunvericilik və qaydalara düzəlişlərin edilməsi üçün tövsiyələrin hazırlanması;
- əməyin ən pis formalarını və həssas işçi qruplarının müdafiəsinə dair qanunvericilik də daxil olmaqla ƏTM və əmək qanunvericliyinin, tətbiqinə nəzarətin həyata keçirilməsi məqsədilə DMX-nin institusional potensialın artırılması;

- iş yeri tələblərinə uyğunluğun artırılması məqsədilə hökumətin sosial tərəfdaşlar və digər qurum və tərəfdaşlarla əməkdaşlığının gücləndirilməsi.

**İndikatorlar:**

- Sosial tərəfdaşlarla məsləhətləşmələr əsasında nəzarətedici və qabaqlayıcı tədbirlərin və iş yeri tələblərinə uyğunluğun gücləndirilməsi üçün strategiya;
- Əmək Müfəttişliyinin fəaliyyətinə daxil edilmiş yeni iş üsullarının sayı;
- iş yeri tələblərinə uyğunluğun təmin edilməsi üçün yeni təşəbbüslərin (tədbirlərin) sayı.

***Nəticə 3.2: Sosial dialoq üzrə milli üçtərəfli mexanizm təsis olunmuşdur və effektiv fəaliyyət göstərir***

Üçtərəfli tərəfdaşların mütəmadi görüşərək mühüm əmək və sosial məsələləri müzakirə edəcəyi və fəaliyyətlərini əlaqələndirəcəyi daimi üçtərəfli orqanın yaradılmasına böyük ehtiyac duyulur. Azərbaycanda sosial tərəfdaşların təşəbbüsü ilə sosial və iqtisadi məsələlər üzrə milli üçtərəfli komissiyanın (MÜK) təsis edilməsinə dair iş başlamışdır. Sosial dialoqun daha effektiv olması üçün və baxılacaq məsələlərdən asılı olaraq, digər milli iştirakçılar da cəlb oluna bilər (müvafiq nazirliklər və hökumət orqanları).

MÜK-in təsis edilməsində, funksiyalarının və reqlamentinin, strukturunun, iş üsullarının və gündəliyinin çərçivəsinin müəyyən edilməsində BƏT üçtərəfli tərəfdaşlara məsləhət və texniki dəstək göstərəcəkdir. BƏT 144 saylı "Üçtərəfli məsləhətləşmələr (beynəlxalq əmək normaları) haqqında" Konvensiyaya müvafiq olaraq beynəlxalq əmək standartlarına dair texniki məsləhətləşmələr və eləcə də MÜK üzvlərinin (tərəfdaşlarının) potensialının artırılmasını təmin edəcəkdir. Sosial dialoqun daha da gücləndirilməsi və sektor və müəssisə səviyyəsində kollektiv danışıqların aparılması istiqamətində sosial tərəfdaşlara dəstək veriləcəkdir. Sosial tərəfdaşlar tərəfindən MÜK-də gender bərabərliyinə uyğun olaraq təmsil olunma təşviq olunacaqdır.

BƏT Azərbaycan iqtisadiyyatının diversifikasiyasının dəstəklənməsi məqsədilə Transmilli Şirkətlər və Sosial Siyasətə dair Prinsiplərin Üçtərəfli Bəyannaməsi (BƏT TMŞ Bəyannaməsi) prinsiplərinin təbliği yolu ilə üçtərəfli tərəfdaşlarla (həmçinin MÜK çərçivəsində) birgə işləyəcəkdir.

Bütün səviyyələrdə (şirkət, sektor, region, milli) sosial dialoqu gücləndirmək üçün sosial tərəfdaşlar Əmək Məcəlləsində əsaslı sosial dialoq və kollektiv şəkildə sövdələşməyə kifayət qədər imkan yaradacaq müvafiq dəyişikliklərin edilməsi istiqamətində birgə çalışacaqlar. Bu, həm işçilər, həm də işəgötürənlərə kollektiv sövdələşmə prosesinə daha fəal cəlb olunmaq və kollektiv razılaşmalar vasitəsilə qarşılıqlı əlaqələri tənzimləmək imkanı yaradacaqdır.

**İndikatorlar:**

- MÜK-ün təsis olunması, Əsasnaməsinin qəbul edilməsi;
- gender baxımından balanslaşdırılmış MÜK-ün tərkibi (qadınların azı 30% təmsil olunması ilə);
- MÜK-ün səmərəli fəaliyyəti: Katibliyin yaradılması, il ərzində iclasların sayı;

- BƏT tərəfindən keçirilən təlimlərin nəticəsi olaraq sosial dialoq üzrə bilikləri artmış sosial tərəfdaşların nümayəndələrinin sayı;
- sosial dialoq və kollektiv sövdələşmə mexanizmləri vasitəsilə əmək münasibətlərinin tənzimlənməsinə yönəldilən əmək qanunvericiliyində edilmiş dəyişikliklərin sayı.

***Nəticə 3.3: Üzvlərinin maraqlarını effektiv təmsil və müdafiə etməsi və sosial-iqtisadi siyasətə təsir qabiliyyətinin artırılması məqsədilə AHİK-in potensialı gücləndirilmişdir***

BƏT və BHİK-in təşəbbüsü və yardımı ilə Həmkarlar İttifaqlarının maarifləndirmə və məlumatlandırma işinin müasirləşdirilməsi və islahatı həyata keçiriləcəkdir. BƏT AHİK-ə işçilərin hüquqları ilə bağlı üzvlərinin istifadə edə biləcəyi effektiv məlumat və maarifləndirmə şəbəkəsinin yaradılmasında dəstək olacaqdır. AHİK sosial dialoqu başlatmaq və kollektiv müqavilələr bağlamaq, müqavilələrin əhatə etdiyi işçilərin sayını artırmaq, kollektiv məsləhətləşmə prosesində səmərəli iştirak, gender bərabərliyinin təmin olunması və ayrı-seçkiliyin qarşısının alınmasının təşviqi ilə bağlı ekspertiza ilə təmin olunacaqdır.

Həmkarlar İttifaqları üçün işçilər arasında əmək hüquqlarına dair maarifləndirmə işlərinin aparılması və onların, xüsusilə, kiçik və orta sahibkarlıq müəssisələrində və qeyri-formal iqtisadiyyatda məşğul olan həssas qruplarının (əsas diqqət qadınlara yetirilməklə) daha yaxşı təmsil edilməsi və müdafiəsi üçün daxili həmkarlar ittifaqı strukturları arasında qarşılıqlı əlaqələrin təkmilləşdirilməsinə dair təlim keçiriləcəkdir. Xüsusi diqqət kiçik və orta sahibkarlıq subyektlərində həmkarlar ittifaqlarının yaradılmasına və gücləndirilməsinə, sosial dialoqun və kollektiv sazişlərin təşviqinə və hazırlanmasına, gender bərabərliyinin təmin olunmasına və ayrı-seçkiliyin qarşısının alınmasına yetiriləcəkdir. BƏT-in 204 saylı Qeyri-formal İqtisadiyyatdan Rəsmi İqtisadiyyata Keçid Tövsiyəsi AHİK çərçivəsində təbliğ olunacaqdır. Qeyri-formal iqtisadiyyata dair yeni ACTRAV (İşçilərin Fəaliyyətlərinə dair Büro) təlimatı sınaqdan keçiriləcək, həmkarlar ittifaqları rəhbərləri təlimlərdə iştirak imkanı qazanacaqlar.

BƏT struktur islahatları ilə bağlı AHİK-ə məsləhət xidmətlərini təqdim edəcək, iqtisadiyyatın qeyri-formal sektorundan üzvlərin cəlb olunması məqsədilə həm Konfederasiya, həm də sektoral səviyyədə metodoloji dəstək göstərəcəkdir.

**İndikatorlar:**

- kollektiv müqavilə ilə əhatə olunmuş işçilərin sayı (cinslər üzrə bölgü ilə);
- AHİK üzvlüyünün artması;
- Həmkarlar İttifaqlarının qərarverici qurumlarında qadınların payının artması;
- kiçik və orta sahibkarlıq müəssisələrində bağlanılmış kollektiv sazişlərin sayı.

***Nəticə 3.4: Davamlı xidmətlərin göstərilməsi və üzvlərin maraqlarının effektiv müdafiəsinə dair ASK-ın potensialı artırılmışdır***

BƏT Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına (ASK) gənclərin məşğulluğu, qeyri-formal məşğulluq, əməyin mühafizəsi və təhlükəzisliyi məsələləri daxil

olmaqla, institusional və texniki potensialın artırılması məqsədilə dəstək verəcəkdir. Üzvlərin fikirlərinin öyrənilməsi və əlaqələndirilməsi, dəstək strategiyaların və məqsədlərin formalaşdırılması üçün daxili strukturların daha təkmil fəaliyyəti vasitəsilə üzvlərə yeni xidmətlərin göstərilməsi və ya mövcud xidmətlərin təkmilləşdirilməsi sahəsində ASK texniki məsləhət, təlim və müsbət təcrübə nümunələri ilə təmin olunacaqdır.

Bəzi texniki sahələrdə potensialın artırılması məqsədilə ASK nümayəndələri BƏT-in Turin şəhərindəki Beynəlxalq Təlim Mərkəzi ilə əməkdaşlıq şəraitində İşəgötürənlərin fəaliyyəti üzrə BƏT-in Bürosu (ACTEMP) və digər BƏT bölmələrinin təşkil etdiyi təlimlərə cəlb olunacaqdır. Daha dəqiq, ASK-ın rəhbərliyi və onun İşçi Heyəti üçün işəgötürən təşkilatlarının səmərəli idarə olunması üzrə təlimlər və strateji planlaşdırma üzrə seminarlar keçiriləcəkdir. Təşkilatın idarə olunmasının təkmilləşdirilməsi üçün ASK-ya idarəetmə və inzibati strukturların təkmilləşdirilməsində yardım göstəriləcəkdir.

ASK üzvləri üçün yeni xidmətlərin göstərilməsi və mövcud xidmətlərin təkmilləşdirilməsi və (və ya) genişləndirilməsi sahəsində texniki dəstək göstəriləcəkdir. Daha dəqiq, əmək sahəsinə dair məsələlərlə (gənclərin məşğulluğu (milli və regional səviyyədə), əməyin təhlükəsizliyi və mühafizəsi (ƏTM), korporativ sosial məsuliyyət (KSM), beynəlxalq əmək standartları (BƏS) və əmək sahəsində fundamental hüquq və prinsiplərə hörmət) bağlı xidmətlərin işlənilib hazırlanması üzrə təlimlər təşkil olunacaqdır.

ASK-ın təbliğat-təşviqat rolunun gücləndirilməsi məqsədi ilə ASK-ın biznes mühitinin təhlil edilməsi və təcrübəyə əsaslanan dəlillər əsasında dəyişikliklərin təşviq edilməsi potensialının artırılması üçün dayanıqlı müəssisələr üçün əlverişli mühit (EECE) alətlər dəstindən istifadə olunacaqdır. Bundan əlavə, ASK-ya analitik sənədlərin hazırlanmasında və maliyyə və sahibkarlıq mühitinin təkmilləşdirilməsi vasitəsilə biznes maraqlarının təşviqi sahəsindəki səylərində dəstək göstəriləcəkdir. Qeyri-formal iqtisadiyyatın və bütün səviyyələrdə qeyri-ədalətli rəqabətin, eləcə də korrupsiyanın və qeyri-şəffaflığın aradan qaldırılması sahəsində tədqiqatların aparılması və siyasətlərin formalaşdırılması üçün ASK texniki dəstəkdən faydalanacaqdır.

Bütün bu dəstəyin komponentləri ASK-ya üzvlüyü işəgötürənlər üçün daha da cəlbedici edəcək və Azərbaycanda real biznes maraqlarının müdafiəsi üçün onun nüfuzunu və təmsil etmə qabiliyyətini artıracaqdır.

**İndikatorlar:**

- ASK tərəfindən təşkilati və idarəetmə təcrübələrində edilmiş dəyişikliklər;
- ASK-ın üzvləri üçün hazırladığı və tətbiq etdiyi yeni və (və ya) daha təkmil xidmətlərin sayı;
- ASK-ın hazırladığı analitik sənədlərin və onların təşviqi üçün təbliğat strategiyalarının sayı;
- sosial-iqtisadi sahədə ASK-ın iştirakı ilə siyasət məsələlərinə dair məsləhətləşmələrin və qəbul edilmiş qərarların sayı.

## IV. İcra, monitorinq və qiymətləndirmə məsələləri

Hökumət, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası hazırkı LƏÖP-ün hazırlanmasında əsas

rol oynamışlar. LƏÖP ölkə prioritetləri, əsas nəticələr, iş göstəriciləri və strategiyalar BƏT-in Layiqli Əmək üzrə Texniki Dəstək Qrupu və Şərqi Avropa və Mərkəzi Asiya üzrə Moskva şəhərindəki Ölkə Nümayəndəliyi və Azərbaycandakı üçtərəfli tərəfdaşlar ilə aparılmış çoxmərhələli məsləhətləşmələr prosesində müəyyən edilmişdir və bu yanaşma onun icrası üçün tələb olunan bünövrə yaratmışdır.

LƏÖP-ün icrası, texniki və maliyyə resurslarının bir-birini tamamlamasının təmin edilməsi məqsədilə LƏTDQ/BƏT-in Moskva şəhərindəki Ölkə Nümayəndəliyi, Avropa Regional Ofisi, BƏT-in Baş Ofisinin texniki bölmələri və Turində BƏT Beynəlxalq Təlim Mərkəzinin sıx əməkdaşlığı şəraitində həyata keçiriləcəkdir. BƏT-in Azərbaycandakı Milli Əlaqəndiricisi ümumi əlaqələndirməni, monitorinqi və LƏÖP-ün icrası ilə bağlı milli və beynəlxalq səylərin qarşılıqlı əlaqədə olmasını təmin edəcəkdir.

Müvafiq LƏÖP nəticələrinin icrasının dəstəklənməsi, o cümlədən, yerli resursların səfərbər edilməsi yolu ilə Azərbaycanda digər beynəlxalq agentliklər və donor təşkilatlarla strateji əməkdaşlıq əlavə olaraq gücləndiriləcəkdir. BƏT, BMTİP və digər BMT təşkilatları, beynəlxalq təşkilatlar və ikitərəfli donorlar kimi maraqlı tərəflərlə əməkdaşlığını davam etdirəcəkdir. BƏT, bir tərəfdən Azərbaycanla BMT arasında 2016-2020-ci illəri əhatə edən tərəfdaşlıq çərçivə (UNAPF) sənədinin ölkə nəticələrinin, digər tərəfdən isə hazırkı LƏÖP-ün icrası məqsədi ilə qarşılıqlı faydalı əməkdaşlığın yaradılması üçün BMT agentlikləri daxilində müvafiq tematik qruplar və xüsusi işçı qruplarla sıx əməkdaşlıq quracaqdır.

LƏÖP nəticələrinə spesifik texniki sahələrdə BƏT-in texniki əməkdaşlıq layihələrinin icrası, məşvərət missiyaları, məlumatların bölüşməsi, potensialın artırılması və təlimlərin keçirilməsi vasitəsi ilə nail olunacaqdır. Hökumət və sosial tərəfdaşlar ehtiyac yarandıqda ekspertlərlə təmin edəcək, iş məkənları təqdim edəcək və maddi-texniki dəstək göstərəcəkdir. LƏÖP üçün yerli resursların səfərbər edilməsi BƏT ilə Azərbaycan hökumətinin birgə vəzifəsidir. LƏÖP-də nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və onun tabeliyində olan qurumlarının hər il bu məqsədlər üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitləri daxilində həyata keçiriləcəkdir. BƏT LƏÖP-ün icrası üçün müvafiq texniki dəstək və maliyyə resursları təqdim edəcəkdir.

LƏÖP-ün icrası müntəzəm şəkildə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK), Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) nümayəndələrindən və BƏT-in Azərbaycandakı Milli ƏAzəələndiricisindən ibarət üçtərəfli məşvərət qurumu tərəfindən nəzərdən keçiriləcəkdir. Üçtərəfli məşvərət şurasının əsas vəzifəsi birgə razılaşdırılmış məqsədlərə nail olunması üçün LƏÖP məqsədlərinin təşviq edilməsindən, LƏÖP icrasının monitorinq edilməsi və nəzərdən keçirilməsindən, cəlb olunmuş bütün tərəflərin fəal iştirakının və vəzifələrinin yerinə yetirilməsinin təmin edilməsindən ibarət olacaqdır. Gender bərabərliyi prinsiplərinə uyğun olaraq, BƏT tərəfdaşları üçtərəfli məşvərət şurasının gender bərabərliyi əsasında tərkibinin təmin edilməsinə çağırır.

LƏÖP imzalandıqdan sonra BƏT ilə üçtərəfli tərəfdaşlar tərəfindən hərtərəfli İcra Planı və Monitorinq Çərçivəsi tərtib olunacaqdır. Burada nəticələr, fəaliyyətlər, müddətlər və BƏT-in, Hökumətin və sosial tərəfdaşların vəzifələri barədə daha konkret və spesifik məlumatlar əks olunacaqdır. İcra və Monitorinq Planları müntəzəm olaraq üçtərəfli məşvərət şurası tərəfindən nəzərdən keçiriləcək və BƏT Milli Ə İcələndiricisi tərəfindən yenilənəcək (ən azı ildə bir dəfə); tələb olunduğu halda, LƏÖP icrası strategiyasının

təkmilləşdirilməsi və ölkə proqramı fəaliyyətlərinin yenidən müəyyən edilməsi üçün müvafiq düzəlişlər ediləcəkdir.

LƏÖP-ün icra olunması BƏT standart siyasətlərinə uyğun yekun olaraq nəzərdən keçiriləcəkdir.

Azərbaycan Respublikası Hökuməti adından

Səlim Müslümov

Əmək və əhalinin sosial müdafiəsi naziri

Bakı, "30" sentyabr 2016-cı il

Beynəlxalq Əmək Təşkilatı adından

Haynts Köler

Regional Direktor, BƏT-in Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi

Bakı, "30" sentyabr 2016-cı il

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası adından

Səttar Mehbalıyev

Sədr

Bakı, "30" sentyabr 2016-cı il

Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası adından

Məmməd Musayev

Prezident

Bakı, "30" sentyabr 2016-cı il